**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**025/276

**Bakı şəhəri** "09" iyun **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2022-ci il 7 - 8 iyun tarixli rəsmi məlumatına əsasən, Çin Xalq Respublikasının (ÇXR) Chongqing (Chongking) əyalətində dabaq, Hunan (Hunan) və Siçuan (Sichuan) əyalətlərində isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, sözügedən əyalətlərdə aradan qaldırılmış xəstəliklərə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatmış və epizootik sağlamlıq statusu bərpa olunmuşdur.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adları çəkilən əyalətlərə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, qeyd olunan xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə ÇXR-nın adları sadalanan əyalətlərinə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.1.1.** 2020-ci il 7 fevral tarixli 29 nömrəli qərarla ÇXR-nın Hunan əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2020-ci il 12 fevral tarixli 31 nömrəli qərarla ÇXR-nın Siçuan əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Dabaq xəstəliyi üzrə:**

**1.2.1.** 2020-ci il 30 iyun tarixli 48 nömrəli qərarla ÇXR-nın Chongqing əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət
Baytarlıq Müfəttişi
Chief Veterinary
Officer